**İdman və publisistika**

*İkinci Qarabağ müharibəsində şəhid olmuş idmançı əsgərlərimizin ruhuna*

# Sonuncu qələbə

Əsən yellər ağacların xırdaca budaqlarının yarpaqlarını titrədirdi. Böyük yola aparan yoldan keçib istəyinin ünvanına tələsən yeniyetmənin yerişi yeyinləşirdi. Ona elə gəlirdi ki, yavaşısa, ləngisə zamandan ayrı düşəcək, anlarını zamanın yaşanılmış anları kimi yaşayacaq. Rayon mərkəzinə tələsirdi, idman zalına tələsirdi, məşqlərə tələsirdi, qələbəyə tələsirdi...

Onda 2015-ci il idi...

Aylar dəyişirdi, fəsillər dəyişirdi, onun istəyi niyyətləşirdi. Niyyəti üfüqsüz niyyət olacaqdı...

Aylar keçdi. İllər keçdi. Yeniyetməydi, gəncləşdi...

2019-cu ilin payızında Onu hərbi xidmətə çağırdılar..

Əsgər idi. Hərbi And içmişdilər. Asudə vaxtlarda ömrün dünənlərində qalanlarını xatırlayırdılar, gizlincləri söz üzünə, mətləb üzünə çıxartmadan könül dünyalarından danışırdılar, Vətəndən, əlimiz



çatmayan, ünümüz yetməyən torpaqlarımızın sıxıntılarından danışırdılar, Şuşalı ananın bir duasından danışırdılar: "İsa bulağından bir qurtum içənə kimi son nəfəsimə qıyma, a Tanrım!", Ali Baş Komandanın əmri ilə döyüşlərin başlayacağı anlardan danışırdılar: "Kaş döyüşlər biz tərxis edilənə kimi başlayaydı, döyüşəydik. Qalib gələydik, qalib əsgər kimi tərxis ediləydik, işğal sonlanaydı...", ...

Qazaxlı əsgər düşüncələrini "Misri" üstə şeirləşdirirdi:

Qardaşlarım, dan sökülür,
Durun Vətənin eşqinə.
Yolumuza nur tökülür,
Durun Vətənin eşqinə.

Mərdlik,camı içmək üçün,
Döyüş yolu seçmək üçün,
Şəhidlikdən keçmək üçün
Durun Vətənin eşqinə.

Misralar Yeri Göyə dikəldirdi...

Hamı kimi onlar da torpaqlarımızın işğaldan xilası üçün müharibə arzulayırdı...

Müharibə başladı...Ordumuz döyüşə-döyüşə irəliləyir, irəliləyə-irəliləyə qələbələr qazanırdı...

Füzuli istiqamətində döyüşəcəkdilər.

Gecənin qaranlığında kürək-kürəyə verib dan yerinin sökülməsini gözləyirdilər. Mövqe-səngərlərin yan-yörəsində sanki yellər qanad salmışdı; bir yarpaq titrədəsi yel əsmirdi. Göy üzündə təkəm-seyrək görünən ulduzların işığı Yerə çatmırdımı, ulduzların işığını Göylərmi udurdu, hər nəyiydisə, qaranlıq qaranlığındaydı, bu başaçılmaz qaranlıqdan sıyrılan xatirələr Onun da düşüncələrini dünənlərə aparmaqdaydı:

"Bütün görüşləri final görüşü kimi keçirməyən idmançının uğuru tez üyüşür...", - məşqçisi belə deyirdi. Müharibə başlayanda komandirlərinin qətiyyəti hamısının döyüş əzmini kükrətmişdi: "Hər döyüşü son döyüş bilib döyüşün, döyüşçünü sonrakı döyüşə qələbə ruhu uğurlayır...", - belə döyüşürdülər...

Gülümsündü. "Döşək üzərində qələbə qazandığın kimi hərbi xidmətdə də uğurlar qazanacağına hamımız inanırıq...", - idmançı dostları onu hərbi xidmətə belə uğurlamışdı. "Ali Baş Komandanın əmri ilə döyülər başlasa döyüşlərdə də qələbə qazanacam!", - demək istəmişdi. Deməmişdi...

Rayon birinciliyində qələbə qazanmışdı...
Beynəlxalq yarışlarda qələbə qazanmışdı...
Respublika birinciliyində qələbə qazanmışdı...

Aradan illər keçmişdi. İndi 2020-ci ilin payızıydı. Onda yeniyetməydi, indi əsgəriydi, hərbi xidmətə gələndən bəri əsgər yoldaşları kimi o da bu günü arzulamışdı. O da bu günkü döyüşün qələbəsinə tələsirdi...

Müharibədə mövqe qələbələri qazananların sırasında O da vardı...

Döyüş azca səngimişdi. Üçbir-beşbir nəfəs dərirdilər. O, ömrünün dünənlərini xatırlayırdı, ilk yarışını xatırlayırdı, ilk qələbəsini xatırlayırdı:

Məşqçisi onu döşəyə, güləşməyə uğurlayırdı. Tələsirdimi? Yerişi yavaşımışdımı? Döşəyə çatar-çatmaz ayaq saxlamışdı, dönüb geri baxmışdı. Yoldaşlarının baxışlarında bir qınaq sezmişdi. Özündən utanmışdı. Alnını ovuşdurub döşəyə tələsmişdi...

Görüşdə qələbə qazanmışdı. İlk qələbədən başlayan uğurları davamlı olmuşdu...

Artilleriya hazırlığı bitincə döyüş əmri verildi...

Döyüşürdülər. Düşmənin qətiyyətlə müdafiə olunan döyüşçüləri açıq döyüş üzünə çıxmışdı. Güllələr didişirdi...

Güllə səsləri daşlığa sarı axırdı. Barmağı tətikdən üzülməsə də ürəyinin gözüylə həmin səmtə baxdı. Dar macalda gümanlar çəkilməz yükə dönməkdəydi. Atışa-atışa avtomatı susmuş döyüşçü dostunu səslədi. Güllə səsləri içində çağırışı eşidilmədi. Bir anlığa. Tək bircə anlığa duruxdu. Güllələr papağını sıyırdı. Tələsik sürünə-sürünə dostunun hoyuna çatmaq istədi...

Yaxınlaşmışdı. Beş-altı addımdan sonra əli əlinə çatacaqdı. Səslədi. Onun gəlişini duyan dostu azca dikəldi. Elə bil gözlərinin işığı artdı. Dar macalda həzin-həzin əsən meh ümidinin göynəyinə döndü, göynəyinin köynəyinə. Dostu dirsəklənmək istədi. Bacarmadı. Döyüşlər gedən tərəfə baxdı, sonra Ona sarı. Gözləri torlaşmışdı. Qırıq-qırıq səslə, "Dö-yüşə qa-yıt...". - dedi. Qayıtmadı...

Heç biri bilmədi ki, ölüm gərnəşən yerdə ömür tilsimə düşür...

Dostu son nəfəsinə dirsəklənib dizü üstə qalxmaq istədi, taqəti çatmadı...

Özünü sözünü bitirə bilməyən yaralı döyüşçünün üstünə saldı. Onu sol əli ilə özünə sarı çəkmək istəyəndə kürəyi isindi. Gözlərinin qarasını qaranlıqlar bürüdü. Sinəsi dostunun sinəsinin sarğısı oldu...

Oktyabrın 18-i idi. Füzuli işğaldan azad edilmişdi...

Bu döyüş idmançı döyüşçünün son döyüşü oldu, bu qələbə onun sonuncu qələbəsi oldu - şəhidlik Vətən naminə qələbədi. Həm də müqəddəs qələbədi!..



*Rəşid FAXRALI,*
*Əməkdar jurnalist*